# Əbdülbaqi Gölpınarlının yaradıcılığında divan ədəbiyyatı məsələləri

**Nəsrəddin Musayev**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: musayev.nm@mail.ru

**Annotasiya.** Məqalədə görkəmli ədəbiyyat tarixçisi, orijinal əsərlər müəllifi, əslən azərbaycanlı olan Əbdülbaqi Gölpınarlının divan ədəbiyyatı ilə bağlı tədqiqatçılıq fəaliyyətindən bəhs olunur. Onun çoxşaxəli fəaliyyətində XV-XX əsrlər divan ədəbiyyatına və onun görkəmli nümayəndələrinə dair yazdığı çoxsaylı əsərləri xüsusi mərhələ adlandırmaq olar. Alimin 1950-1955-ci illərdə bu mövzuda yazdığı beş kitab ədəbiyyatşünaslıqda müsbət hadisə kimi qəbul edilir. Çünki o, Türkiyədə divan ədəbiyyatına aid dərin elmi təhlillər əsasında geniş tədqiqatlar aparan ilk ədəbiyyatşünasdır. Məqalədə həmin əsərlərin ən diqqətçəkən məqamlarına münasibət bildirilir, hələ XX əsrin 50-ci illərinin əvvəllərində bu mövzuda orijinal fikirlər söylədiyi, divanın əsl mahiyyətini izah etdiyi və bu zaman tərəfsiz davrandığı əsl tədqiqatçıya xas xüsusiyyətlər kimi təqdir olunur.
Qeyd olunur ki, Türkiyədə divan ədəbiyyatı Ə.Gölpınarlının tədqiqatları ilə canlanmış, divan şairlərinin əsərləri onun ciddi araşdırmaları ilə elmi ictimaiyyətə təqdim olunmuşdur. Azərbaycanda isə indiyədək onun elmi fəaliyyəti haqqında araşdırmalar aparılmadığından, divan ədəbiyyatı ilə bağlı sistemli və çoxsaylı tədqiqatlarına da münasibət bildirilməmişdir. Bu mənada təqdim olunan məqalə divan ədəbiyyatının inkişaf dinamikasını, Ə.Gölpınarlının divan ədəbiyyatına dair yazdığı əsərlərin ideya-bədii xüsusiyyətlərini öyrənmək və onun çoxşaxəli yaradıcılığı ilə bağlı elmi-nəzəri ümumiləşdirmələr aparmaq baxımından aktual hesab oluna bilər.
**Açar sözlər:** Əbdülbaqi Gölpınarlı, divan, divan ədəbiyyatı, divan şairləri, poetizm

**Məqalə tarixçəsi:** göndərilib – 28.11.2022; qəbul edilib – 05.12.2022

# Divan Literature Issues in the work of Abdulbagi Golpinarli

**Nasreddin Musayev**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: musayev.nm@mail.ru

**Abstract.** The article deals with the research activity of an outstanding literary historian and the Azerbaijani author of some original works, Abdulbagi Golpinarli.
He wrote the numerous works on the divan literature of the 15th-20th centuries and its prominent representatives that can be called a special stage in his multifaceted activity. The scientists' five books on this topic written in 1950-1955 are considered a positive event in literary studies. He was the first literary scientist who criticized extensive research based on deep scientific analyzes of divan-style literature. The main points were analyzed by the author as a real researcher, contributing the original opinions of the 1950s of the beginning of the XX century, and explaining the characteristics of the real nature of divan work.
It is noted that divan literature was revived with the researches by A.Golpinarli and the works of divan poets were presented as serious research to the scientific community in Turkey. In Azerbaijan, researches about his scientific activity have not been conducted until now, and no attitude has been expressed about his systematic and numerous studies related to divan literature.
In this sense, the presented article can be considered relevant in terms of studying the development dynamics of divan literature, the idea-artistic features of A.Golpinarli's works on divan literature, and making scientific-theoretical generalizations about his multifaceted creativity.
**Keywords:** Abdulbagi Golpinarli, divan, divan literature, divan poets, poeticism

**Article history:** received – 28.11.2022; accepted – 05.12.2022

## Giriş / *Introduction*

Forma və məzmun etibarilə klassik Şərq ədəbiyyatını müxtəlif cür adlandırırlar: *"saray ədəbiyyatı, əsilzadələr ədəbiyyatı, müsəlman ədəbiyyatı, klassik ədəbiyyat, qədim türk ədəbiyyatı, İslami türk ədəbiyyatı"* [1, s.115-116]. Bunlarla yanaşı, klassik ədəbiyyatın bir adı da var: divan ədəbiyyatı. Çoxmənalı söz olan "divan" sözü XI əsrdən etibarən Yaxın Şərq ədəbiyyatında şairlərin yazdıqları şeirlərin toplusu mənasında işlənmişdir. Divan ədəbiyyatı müasir ədəbiyyatşünaslıqda şərti məfhumdur. Belə ki, divan deyəndə Azərbaycanda ədəbi anlamda həm "şeirlər toplusu", həm də hər hansı bir klassikin ədəbi irsi, "külliyyatı" mənasında, Türkiyədə XIX əsrədək olan ədəbiyyat nəzərdə tutulur. *"Divan ədəbiyyatı" deyəndə isə, adətən, qəzəl-qəsidə ədəbiyyatı başa düşülür"* [2, s.3].

Türkiyədə divan ədəbiyyatı ilə bağlı ilk tənqidin 1866-cı ildə "Təsviri Əfkar"da çap olunan "Lisani Osmaninin ədəbiyyatı haqqında bəzi mülahizatı şamildir" adlı məqaləsi ilə Namiq Kamala aid olması həqiqətdir. Bu sahədə ən sərt tənqid isə Ə. Gölpınarlıya məxsusdur. O, yaradıcılığının ilk dövrlərində bu ədəbiyyatı və onun nümayəndələrini kəskin şəkildə tənqid edib. Tədqiqatçıya görə, *"Divan ədəbiyyatında təbiət, bildiyimiz təbiət deyil, eşq təbii eşq deyil. Bu ədəbiyyatda həyata bağlılıq yox, miskin bir təvəkkül, bir qəza və qismət inancı var"* [3, s.120]. Digər tərəfdən, *"divan şeirlərində eşq, a\şiq, məşuq, anlaşılmaz sözlər, tərkib və ifadələr özünü göstərir"* [4, s.4]. Ona görə də tədqiqatçı divan mətnlərini əsaslı şəkildə oxuyub dərk etmədən onların başa düşülməsini mümkünsüz sayır.

## Əsas hissə / *Main Part*

### Ə.Gölpınarlının yaradıcılığında divan ədəbiyyatı mövzusu

Ə.Gölpınarlının divan ədəbiyyatı ilə bağlı ilk kitabı "Divan ədəbiyyatı bəyanındadır" adlanır. Əsər 1945-ci ildən – çap olunduğu vaxtdan çox güclü tənqidlərə məruz qalıb. Hətta bu tədqiqat işinə tənzimat dövründən başlayaraq, klassik türk şeiri ilə bağlı ən çox tənqidə məruz qalan əsər adı versək, səhv etmərik. Ə.Gölpınarlı bu əsəri çap olunduqdan sonra peşman olaraq, xəta etdiyini anlamış, onun ilk tənqidçilərindən biri müəllifin özü olmuşdur. O bu barədə yazır: *"Vaxtı ilə mən bir "Divan ədəbiyyatı bəyanındadır" yazmışdım; bu əsər olduqca gurultu qoparmışdı, hətta rəhmətlik Ataç belə, "Əbdülbaqi, sənin gördüyün bu iş eyibdir, Nəşatini biz səndən öyrənmədikmi?", – deyə məzəmmət etmişdi. Etiraf edirəm, doğrudan da, təəssüfləndiricidir"* [5, s.121]. Müəllif bu sözləri ilə yanıldığını etiraf edir və həmin fikirlərin bir təvəhhümdən (yox olanı var olan kimi zənn etmək) ibarət olduğunu bildirir.

Bu səmimi etirafı Ə.Gölpınarlının yaradıcılığına kölgə salmır, əksinə, ona daha da rəğbət qazandırır. Tədqiqatçının sonralar divan və təkkə ədəbiyyatı ilə bağlı apardığı bir-birindən dəyərli araşdırmalar da bunu təsdiq edir. Eşqi Tanrıya çatmağın yolu sayan təsəvvüf görüşünün İslami dəyərlərlə inkişaf edən ədəbiyyata güclü təsir etməsi, bu ədəbiyyatda aparıcı mövqeyə malik olan təkkə şeirinin həm məna, həm şəkil və həm də növ baxımından zənginliyi ilə bağlı düşüncələri də bunu deməyə əsas verir. Tədqiqatçı təkkə ədəbiyyatını təriqətlərə sevgi bəsləyən xalq kütlələrinin başa düşə biləcəyi dildə və üslubda, xalq ədəbiyyatı çərçivəsində verməyə çalışırdı. Onun fikrincə, təkkələrdə ayinlər zamanı melodiya ilə oxunan ilahilər təriqət böyüklərinin əfsanələrini əhatə edirdi. Musiqinin, rəqsin yanında mərhəmət və tolerantlığı da ön plana çıxaran Mövlanadan sonra bir çox təriqət mənsubları XIII əsrin müqtədir şairi Yunus Əmrəni mənimsədi, onun şeirlərinə öz tədbirlərində yer verdilər. Beləliklə də, Y. Əmrənin üslubunda yazan bir çox şair yetişdi və onlar divan ədəbiyyatının inkişafında əhəmiyyətli rol oynadılar.

Tədqiqatçı divanın tərtibi problemlərinə də toxunaraq, bu məsələnin həmin şairlər üçün bir ideala çevrildiyini bildirir. Əvvəlcə dost məclislərində, ziyafətlərdə oxunan şeirlər sonra divan şəklində hazırlanırdı. Divan ədəbiyyatının izlərinin silinməyə başladığı dövr isə XIX əsrə təsadüf edir. Çünki məhz həmin dövrdə təsəvvüf sahəsində durğunluq baş vermişdi. Halbuki təsəvvüf klassik dövrün şairləri üçün ilham qaynağının təməli olmuşdur. Bu əsrin şairləri yeni mövzu, ideya və məzmun-

da yazmağı dövrün tələbi hesab etdiklərindən təsəvvüfü seçməmişdilər. Divan şeirinin qaydalarına gəldikdə isə, onun fikrincə, bütün şairlər eyni ideal gözəli sevir. Bu, divan ədəbiyyatı ilə bağlı ən çox tənqidə məruz qalan xüsusiyyətlərdən biridir. Agah Ləvənd sevgilinin təsviri ilə bağlı yazır*: "Şairlərin müxtəlif vəsflərlə təsvir etdikləri bu gözəlliyin rəsmini çəkmək lazım gəlsə, insanı dəhşətə gətirən bir tablo meydana çıxar"* [6, s.480]. Okuyucu isə bu fikirdədir ki, aşiqin *"vəsfləri müəyyən edilmiş bir sevgiliyə aşiq olmaq məsuliyyəti var. Bu eşqdə şəxsi duyğulara və təsəvvürlərə yer yoxdur"* [1, s.196].

Ə.Gölpınarlı "Divan şeiri XV və XVI əsrlərdə" [7] əsərində divan şeirinin XVI əsrdə Osmanlı dövlətindəki inkişaf yolunu araşdırır. Məlumdur ki, XVI əsrdə Osmanoğulları ölkəsində dini cərəyan çox qüvvətli idi. Hökumətin Səfəvilərlə müharibələri, Ələvi zümrələrin Səfəvilərə meyil etməsi və qarşılıqlı rəqabət hər iki tərəfin təbliğat fəaliyyətini artırmışdı. Nəticədə, Ələvi və Bəktaşilərlə fütüvvət əhlinin Səfəvilərə bağlanması digər Ələvi zümrələrə də təsirini göstərmiş, Bayrami məlamiləri və Qələndərilər kimi, Səfəvilərə bir bağlılıqları olmayanlar da bu təsirə düşmüşdülər. Bayrami məlamilərindən Bosniyalı Həmzə Balinin, şeyx Bədrəddin kimi hökumətə qarşı çıxmaq təşəbbüsü və İstanbula gətirilərək boynunun vurulması bunu daha da qüvvətləndirmişdi. Tədqiqatçının qənaətinə görə, bu şairlərin içində ən qüvvətli olanları Məlamilərdən Kayğusuz Vizəli Əlaəddin, Dukakinzadə Əhməd bəy və Mövləvi Məlamilərindən Şahidi, Yusif Sinəçak və Səmai ləqəbi ilə şeirlər yazan Divanə Məhəmməd Çələbidir. Ə.Gölpınarlı əsərdə o dövrün şairlərindən Süleyman Çələbi, Kamal Ümmi, Mehmed Yazıçıoğlu, Əşrəfoğlu, Yusif Sinan Şeyhi, Əhməd Paşa, Nizami, İsa Nəcati, Məsihi, Yəhya bəy, Xaqani və Şahidi haqqında məlumat və şeirlərindən nümunələr verir.

"Divan şeiri XVII əsr" [8] adlı əsərində həmin dövr haqqında ətraflı məlumat verilir, İranda Əbdürrəhman Cami ilə birlikdə klassik dövrün sona çatdığı, "hind üslubu" deyilən yeni bir tərzin başlandığı qənaətinə gəlinir. Gölpınarlı həmin dövrdə türk divan şairlərinin Hafiz, Sədi, Ənvəri kimi klassik dövrün və bütün İran ədəbiyyatının ustad şairlərini təqlid etdiklərini yazır. Əsərdə *"17-ci yüzillikdə padşah III Mehmeddən başlayaraq, I Əhməd və IV Murad dövrü haqqında məlumat verilmiş, IV Muradın meyxanələri bağlatması, gecə fənərsiz gəzənləri öldürtməsi, İznik qazısını onu yolda qarşılamadığı üçün asdırması kimi bir çox hadisədən bəhs edilmişdir"* [8, s.5-6]. Əsərdə Kafzadə Faizi, Qənizadə Nadiri, Nevizadə Atayi, Şeyxülislam Yəhya, Mehmed Riyazi, Şərif Səbri, Mehmed Bahai, Əbdürrəhman Vəcdi, Mehmed İsməti, Əhməd Nəşati və başqalarının yaradıcılığı təhlil edilir, şeirlərindən örnəklər verilir.

"Divan şeiri XVIII əsr" [9] əsərində isə bu yüzillikdəki divan şairlərinin İran ədiblərinin təsirindən çıxaraq, xalqın hiss və duyğularının tərcümanı olmağa çalışdıqlarını, yerli ünsürlərin şeirə gətirildiyi fikrini müdafiə edir. Tədqiqatçı həmin dövrün divan şairlərindən Əhməd Nədim, Osmanzadə Taib, Şeyx Qalib, Süleyman Nahifi, Atif Əfəndi, Çələbizadə Asim, Seyid Osman Sürürі və başqalarının yaradıcılığını təhlil etdikdən sonra, onların şeirlərindən nümunələr də verir. Alimə görə, *"həmin dövrdə çox önəmli şairlərin olmasına baxmayaraq, divan ədəbiyyatının tənəzzül dövrü başlamışdır"* [9, s.5-6].

Ə.Gölpınarlı "Divan şeiri XIX əsr" [10] əsərində hərbi və tibb məktəblərinin açılması, Avropaya tələbə göndərilməsi, rəsmi qəzetlərin fəaliyyətə başlaması haqqında məlumatlar verir. XIX əsr divan şeirini dəyərləndirərkən gəldiyi nəticə elmi əhəmiyyətini bu gün də qoruyub saxlayır: *"XIX əsr divan şeiri siyasi sahədəki vəziyyətimiz kimi Şərqlə Qərb, yeni ilə köhnə arasında bir qərarsızlıq dövrünü yaşayırdı"* [10, s.8]. Tədqiqatçı bu əsərində dövrün şairlərindən Mütərcim Asim, Əndərunlu Vasif, İzzət Molla, Akif Paşa, Şeyx Nazif, Kazım Paşa, Arif Hikmət, Sədullah Paşa, Osman Şəms, Əşrəf Paşa, Mahmud Paşa, Agah Paşa və başqalarının yaradıcılığını təhlil edir, şeirlərindən örnəklər verir.

"Divan şeiri XX əsr" [11] əsərində bu dövrün divan şeirindən bəhs etməzdən əvvəl Osmanlı imperatorluğunun XVIII-XX əsrlər arasındakı ümumi vəziyyətini tarixi xronologiya ilə verir. Gülhanə xətti-şərifin elanından başlayaraq, Osmanlı torpaqlarının hansı padşahlar zamanında və necə zəbt olunduğunu tarixi faktlarla göstərir. Milli mübarizə illərini, Qurtuluş savaşını, Atatürkün Cümhuriyyəti elan etməsini də şərh etdikdən sonra XX əsr divan şeirinə münasibət bildirir. Dövrün tanınmış şairlərindən Müəllim Feyzi, Şeyx Vəsfi, Hüseyn Fəxrəddin Dədə, Rəşid Akif Paşa, Məmduh Paşa

Tələt, Yəhya Kamal və başqalarının *"yaradıcılığını təhlil etdikdən sonra, onların şeirlərindən nümunələr də verir"* [11, s.3-6].

**Ə.Gölpınarlı divanının ideya-bədii xüsusiyyətləri**

Ə.Gölpınarlının tədqiqatçılıq qabiliyyəti ilə yanaşı, şairlik istedadı da olmuşdur. 350-yə yaxın şeirdən ibarət olan "Divan"ı Mövlana Muzeyindəki Ə.Gölpınarlı kitabxanasında saxlanılır. Şeirlərinin 272-si türk dilində, 75-i isə fars dilindədir. Maddeyi-tarix mövzusunda usta olan şairin şeirlərinin 106-da müxtəlif hadisələrdən bəhs olunur. Əsərdə qəsidə, qitə, rübai kimi poetik nümunələr yer alsa da, qəzəllər üstünlük təşkil edir. Şeirlərindən də məlum olduğu kimi, Gölpınarlı bədii yaradıcılığa 1922-ci ildən başlamış, 1980-ci ilə qədər davam etmişdir. Onun divanında toplanan şeirlərindəki mövzuları bu cür qruplaşdırmaq olar: şairin əhli-beyt sevgisi, həyatı boyu bağlı olduğu şiə məzhəbi, Mövlanaya və mövləviliyə bağlılıq və məlamilik.

Əsərdə ənənəvi divan tərtibinin əsas prinsiplərinin tələblərinə əməl olunmasını söyləmək çətindir. Məsələn, Divan 29 beytlik türkcə bir nət ilə başlayır, sonra ardıcıl olaraq 9 bənddən ibarət bir təzmin, Həzrəti Əli, Həzrəti Fatimə və on iki imama ithaf olunmuş qəsidələr verilir. Qəsidələrdən sonra müsəddəs, qəzəl, mürəbbe, təxmis kimi nəzm şəkillərində yazdığı şeirləri verilmişdir. Qəzəllərini qafiyə sıralarına görə yerləşdirdikdən sonra "Qiteyi Şükraniyyə" adlı bir qiteyi-kəbirə və iyirmi beş ədəd türkcə rübaisi verilmişdir.

Gölpınarlının şeirlərində əsaslı bədii və ya forma qüsurları olmasa da, bəzi çatışmazlıqlar da mövcuddur. Məsələn, əruzla yazılmış türk şeirində türk sözlərindəki qısa hecanın vəzn zərurəti ilə imaləli (şeirdə vəznə uyğun olmaq üçün bəzi hecaların tələffüzdə qısaldılması və ya uzadılması) oxunması şərtdir. Gölpınarlı bu qaydalara bir çox hallarda əməl etməmişdir. Ola bilməz ki, şair həmin qaydaları bilməmişdir, ona görə də onun bu dəyişikliyi şüurlu şəkildə etdiyini yəqin etmək olar.

Əsərdəki şeirlərin düzümünə uyğun olaraq türk dilində olan şeirlərin olduğu hissəni birinci, fars dilində olan şeirlərin olduğu hissəni isə ikinci hissə adlandıra bilərik. Şair birinci hissədə divan tərtibinin tələblərini gözləməyə çalışmış, şeirlərin düzümündə şəkildən daha çox məzmun uyğunluğunu əsas meyar kimi götürmüş, qəzəliyyat bölməsində şeirləri klassik divanın tələblərinə uyğun olaraq yox, öz düşündüyü kimi tərtib etmişdir. Divanda nəzərə çarpan digər məsələ, fars dilində olan şeirlərin bəzilərinin tərcüməsi ilə birgə verilməsidir. Şair bəzi tərcümələrini ya tamamlamamış, ya da sonradan bəzi səhifələri çıxarmaqla tərcümələri natamam hala salmışdır. Əsərdə bəzən şeirlərlə bağlı məlumat vermək məqsədilə nəsrlə də yazıların olması divan ədəbiyyatı üçün xarakterik hal kimi qəbul olunmur.

Ə.Gölpınarlının Divanındakı türk dilində və fars dilində olan şeirlərin nəzm şəkilləri və beyt/bənd sayı belədir:

Qəsidə: 18-i türk, 6-sı fars dilində. Beytlərin cəmi: 753

Müsəmmət: 13-ü türk, 1-i fars dilində. Beytlərin cəmi: 77

Məsnəvi: 2 ədəd fars dilində. Beytlərin cəmi: 30

Qəzəl: 109-u türk, 17-si fars dilində. Beytlərin cəmi: 700

Qitə: 105-i türk, 23-ü fars dilində. Beytlərin cəmi: 565

Rübai: 21-i türk, 26-sı fars dilində. Beytlərin cəmi: 94

Qoşma: 1 ədəd türk dilində. Beytlərin cəmi: 8

Yetim beyt: 5 ədəd türk dilində. Beytlərin cəmi: 5

Cəmi: 2. 232 beyt.

Şairin poetik yaradıcılığında təsəvvüf mövzusu üstün mövqedədir. İstifadə etdiyi terminlərin çoxu da təsəvvüf terminləridir:

*Pirim yeter artık beni ferdalara atma,*
*Benlik yetişir benliğe benliklere katma.*
*Sun gayri hayal eylediğim, bade-i vaslı,*
*Firkat şeb-i yelda gibidir artık uzatma…*
*… Aciz değilim, aczim, a sultanım, efendim,*
*Zerren olayım, Şemsine hurşidi aratma.*

*Sırrın için ey şah-ı keremkar-ı vilayet,*
*Al nezdine Bakiyi deferdalara atma.* [12, s.118-119]

Bu şeirdə "Pirim" dediyi Mövlanadır, şərab isə təsəvvüf anlamında işlənib, feyzi, bərəkət və nəşəni bildirir. Onun "Qarib" adlı şeiri də şairlik məharətini bir daha göstərir:

*Gurbet ender, gurbet içre olmuşum cana qarib,*
*Şimdi alemde benim ben, bi-emel yekta qarib.*
*…Yok dilimden anlayan bir hemdemim, bir mahremim,*
*Sanki zat-i pak-i Hakkla olmuşum rana qarib.*
*Gök o gök, amma ne çare, yer değil artık o yer,*
*Ben bu yerde olmuşum biçare vü bica qarib…* [12, s.120]

"Divan"da Quran ayələrindən iqtibaslara və Peyğəmbərlə bağlı çox sayda beytlərə də rast gəlinir. Məsələn:

Adəm Peyğəmbər:
*Cənabi Adəmi Nuḥ oldular pənahında,*
*O ravzanın ki məlaik ona həzar gəlir.*

Eyyub Peyğəmbər:
*Məhəbbətinlə təcəllaya aşikar oldu kəlam,*
*Çatdı Ḥəzrəti Eyyuba səhhəti dərman.*

İbrahim Peyğəmbər:
*Onun təvəssülü oldu Xəlilə feyz-resan,*
*Cahimi gülşən edər lütfü saz-kar gəlir.*

İsa Peyğəmbər:
*Zülali mərhəməti oldu möcüzi İsi*
*Fərazi evci fələkdə verib qərar gəlir.*

Məhəmməd Peyğəmbər:
*Cahana ali Məhəmməd nücumi- rəhmətdir*
*Zamana ali Məhəmmədədir əfsəri-irfan.*

Musa Peyğəmbər:
*Məqami Turi həqiqət ki, Musayi İmran*
*Olub kelim qılar arizi iftikar gəlir.*

Nuh Peyğəmbər:
*Cənabi Adəmi Nuh oldular pənahında,*
*O ravzanın ki məlaik ona həzar gəlir.*

Süleyman Peyğəmbər:
*Əlində möhürü-huluşu, dilində eşqilə,*
*Süleyman eylədi ins ilə cinnə həm fərman.*

Yaqub Peyğəmbər:
*Yaqub kimi nəvhai vüslat ilə məstiz,*
*Yusif kimi bir surəti zibaya fədayız.*

Yusif Peyğəmbər:
*Bir ayətidir hüsnümüzüñ Yusifi rəna,*
*Əsrari əzəl nuri beka kənzi atayız.* [13, s.52-54]

Ə.Gölpınarlının "Divan"ında bir çox digər şəxsiyyətlərin adı çəkilir və onların şəxsi keyfiyyətləri, nümunəvi davranışları təqdir olunur. Burada həmin şəxsiyyətlərdən yalnız tarixi mənbələrdə və ədəbi qaynaqlarda haqqında informasiya əldə edə bildiklərimiz haqqında qısa məlumat verməyi məqsədəuyğun sayırıq:

Əli ər-Rza – səkkizinci imam: Mədinədə anadan olub. Anası həbəşistanlı və ya sudanlı bir cariyə olmuşdur. Nəsli oğlu Məhəmməd əl-Cavad ilə davam etmişdir. Əli ər-Rza Məscidül-Nəbidə elm

məclisi qurub həyatını öyrənib-öyrətməklə keçirmiş, fətvalar vermiş və ömrünün son illərinə qədər siyasətdən uzaq olmuş, Məşhəddə vəfat etmişdir [14, s.436-437].

Əli ən-Nəqi – onuncu imam: Mədinədə anadan olub. Atası Məhəmməd Cavad əl-Təqi, anası Səmanə və ya Süsən adında məqribli bir cariyədir. Bağdada yaxın olan Samirə şəhərinin Əsgər məhəlləsində yaşadığı üçün "Əsgəri" təxəllüsünü almış, vəfat edərkən yaşadığı evdə dəfn edilmişdir. O, şiəliyin şəbəkəsini genişləndirmiş və nüfuzunu daha da artırmışdır [14, s.394-395].

Həsən əl-Bəsri: Mədinədə anadan olub. Mükəmməl istedada malik xətib və təsirli səsə malik olduğuna görə, fəsahət və bəlağət zirvəsinə ucala bilmişdir [15, s.109; s.191].

Əbu Nəcib: İlahiyyatçı Azərbaycan alimi. "Ədəbül-müridin" və "Şərhü bəzil əlfazi-müşküle fil-Məsabih" adlı əsərləri məlumdur [16, s.35-36].

Cəfəri Sadiq – beşinci imam: Cəfəri fiqhinin qurucusudur. Mədinədə anadan olub. Atası Məhəmməd əl-Baqir, anası Hz. Əbu Bəkirin nəvəsi olan Qasım ibn Məhəmmədin qızı Ümmü Fərvədir. Təhsilini babası Zeynalabdindən və atasından almış, atasının on doqquz illik imamətindən sonra otuz dörd il bu vəzifəni davam etdirmiş, Mədinədə vəfat etmişdir [17, s.1-3].

Cabir: Ən çox hədis rəvayət edən səhabələrdən biridir. Mədinədə vəfat etmişdir [18, s.530-531].

Cüneyd: Anadan olduğu tarix bəlli olmasa da, Bağdadda dünyaya gəldiyi məlumdur. Bir çox nüfuzlu sufilər Cüneydin söhbətlərini dinləmiş, bu səbəbdən də təriqətlərin, demək olar ki, hamısı ondan bəhs etmişdir [19, s.119-121].

Əbu Süleyman Davud: İlk sufi və zahidlərdəndir. Kufədə İmami-Əzəmin yanında uzun illər hədis və fiqh oxumuşdur. Mərufi Kərhinin onun mürşidi olması, Kərhinin də Səri əs-Sakatini yetişdirməsini nəzərə alsaq, Əbu Süleyman Davudu da təsəvvüf və təriqət tarixinin önəmli simalarından biri hesab etmək olar [20, s.119].

Divanə Məhəmməd Çələbi: Mövləviliyin yayılmasında böyük xidmətləri olan bu Mövləvi şeyxi və divan şairi ömrünün sonuna qədər Qarahisar Mövləvixanəsinin şeyxi olmuşdur. Mənbələrdən də məlum olduğu kimi, Məhəmməd Çələbi Qələndəriliyi mənimsədiyi halda, Mövləviliyi ən çox yayan insan kimi tanınır. Onun şeirləri və "Təriqətül-Arifin" adlı bir risaləsi də mövcuddur [21, s.435-437].

Həsən əl-Əskəri – on birinci imam: Mədinədə anadan olmuşdur. İki-üç yaşlarında ikən atası ilə birlikdə imamların fəaliyyətini daha yaxından izləmək istəyən Abbasi xəlifəsi Mütəvəkkil tərəfindən Xilafətin yeni mərkəzi olan Samirəyə aparılmış, ömrünün sonunadək oranı tərk etməsinə izin verilməmişdir [22, s.289].

Hatəm: İslamaqədərki cahillik dövrünün mərdliyi və səxavəti ilə tanınan tanınmış şairidir. Ərəbistanın şimalında məskunlaşmış Teyy qəbiləsinin başçısı olan Hatəmi Tai ərəb, fars və türk ədəbiyyatlarında da mərdliyin, səxavətliliyin, alicənablığın timsalı kimi qəbul və təqdir edilir [23, s.472-473].

İbrahim Gilani: Şeyx Zahid Gilani dövrünün görkəmli alimi olmuş, öz müridləri ilə sufizmi yaymış, Zahidiyyə təriqətinin piri, seyrü-süluk üsulunu təsbit edən mütəsəvvif kimi şöhrət qazanmışdır [24, s.359-360].

Mərufi Kərhi: Davud Tainin tələbələrindəndir. Təsəvvüf tarixinin ən böyük simalarından biridir. Qadirilik, Xəlvətilik, Mövləvilik, Səfəvilik, Bəktaşilik kimi bir çox təriqətlərin tərəfdarları arasında böyük nüfuza sahib olmuşdur [25, s.67-68].

Mehdi – on ikinci imam: Şiələrin inancına görə zühur edəcək, dünyada ədalət və nizamı bərpa edəcək. İmamiyyənin əksəriyyətinin qəbul etdiyi rəvayətə görə, Məhəmməd ibn Həsən əl-Mehdi 869-cu ildə İraqın Samirə şəhərində anadan olub. Anası Bizans imperatorunun nəvələrindən olan Nərcis xatundur. Atası Həsən əl-Əskəri oğlunun doğulmasını Abbasilərdən gizlətmişdir. Əl-Mehdi atasının vəfat etdiyi gün qeybə çəkilmişdir [26, s.376-377].

Məhəmməd Baqir – beşinci imam: Mədinədə anadan olub. Atası Kərbəla müsibətindən sağ qurtaran Əli ibn Hüseyn Zeynalabdin, anası isə Fatimə bint Həsəndir. Göründüyü kimi, ata tərəfdən Həzrəti Hüseyn, ana tərəfdən Həzrəti Həsənin nəvəsidir. Kiçik yaşlarında Kərbəla müsibətinə şahid

olan Məhəmməd Baqir, mənbələrə əsasən, həyatı boyunca bir çox fəqih yetişdirmiş, Mədinədə vəfat etmiş və Baki məzarlığında dəfn edilmişdir [27, s.506-507].

Məhəmməd ibn Əli əl-Təqi – doqquzuncu imam: Mədinədə doğulub. Anası Məhəmməd Peyğəmbərin zövcəsi Mariyənin nəslindən olduğu güman edilən Sudan əsilli bir xanımdır. O, Abbasi xəlifələrinin zülm və təqibləri qarşısında mərdliyi və təqvası ilə məşhurdur. Bağdadda vəfat etmiş, Qüreyş məzarlığında babası Musa əl-Kazımın qəbri yanında dəfn edilmişdir [28, s.515-516].

Musa ibn Cəfər əl-Kazım – yeddinci imam: Mədinənin yaxınlığındakı Əbvada anadan olmuşdur. Anası Həmidə (Hümeydə) bint Səid əl-Bərbəriyyədir. Atasının ölümündən sonra yaxın tərəfdarlarının dəstəyi ilə imamətini elan etmişdir. Məzarı dövrünün nüfuz sahibləri olan ərəbləri dəfn edildiyi, Kazımiyyə adlandırılan Babüttibn məhəlləsindədir [29, s.219-221].

Dinəvəri əbul Abbas: Fütüvvət hərəkatının ilk təmsilçilərindəndir. Anadan olduğu yer və il bəlli deyil. Fütüvvətin ən tanınmış simalarından olan Dinəvəri Nişapurda yaşamış, təsəvvüf mövzusunda çox təsirli xütbələr oxuduqdan sonra əvvəlcə Tirmizə, oradan da Səmərqəndə getmiş və orada vəfat etmişdir. İbn Xəfifin vəcd və cazibə sahibi bir sufi kimi tanıtdığı Dinəvəriyə görə, zikrin ən aşağı dərəcəsi salikin Allahdan başqa hər şeyi unutması, ən üstün dərəcəsi isə sufinin zikr əsnasında zikri də unudaraq zikr edilənlə (Allahla) iştirak halında olmasıdır. Bunun "fənada fəna" halı olduğunu bildirən Dinəvəri, ulduzları görən Həzrəti İbrahimin “bu mənim rəbbimdir” (Ənam surəsi, 76-cı ayə) deməsini də cəmiül-cəm və aynül-cəm kimi izah edir. Onun təsəvvüf görüşündə insanda müşahidə qabiliyyətinin olması önəmli yer tutur. Dinəvəriyə görə, bəzi insanlar əşya haqqında bildiyi məlumatla Allaha yetişir, ona Haqqın yaratdığı kimi baxarlar. Ona görə də hər gördükləri şeydə, öncə, Haqqın təcəllasına tamaşa edirlər. Bəziləri isə Allaha doğru gedən yolu tapmadıqları üçün mənəvi olan deyil, maddi olan haqda düşünürlər [30, s.358-359].

Şeyx Qalib: İstanbulda anadan olub. Qalata Mövləvixanəsinin şeyxi olan Şeyx Qalibin beş əsəri məlumdur: “Divan”, “Gözəllik və eşq”, “Şərhi Cəzireyi Məsnəvi”, “Əs-Söhbətüs-Safiyyə”, “Zübdeyi aləm” [31, s.54-57].

Zeynəbi Kübra Gülsüm: Həzrəti Fatimənin sonuncu övladıdır. Anasının ölümündən sonra onun tərbiyəsi ilə Həzrəti Əli məşğul olmuş, hələ uşaq ikən ağlı və bəşarətinə görə, ona “Bəni Haşimin ağıllı qadını” ləqəbi verilmişdir. Məhəmməd Peyğəmbərin qardaşı oğlu ilə evləndirilmişdir. Kərbəla müsibətində Həzrəti Hüseynin yanında olmuş, müdrik davranışları ilə Məhəmməd Peyğəmbərin nəslinin bu soyqırımında məhv olub tükənməsinin qarşısını almış, döyüşdən sonra Şama aparılmış, orada Yezidə verdiyi müdrik cavablarla tarixə düşmüşdür. Türbəsi Misirdədir [32, s.356-357].

Göründüyü kimi, şairin divanında bir çox peyğəmbərin, tarixi şəxsiyyətlərin, şiə imamlarının həyatına, şəxsi keyfiyyətlərinə həsr etdiyi çoxsaylı beytləri onun zəngin, əhatəli və çoxşaxəli biliyə malik olduğunun təzahürüdür. Divanda hər iki dildə yazılmış şeirlər hər hansı qruplaşdırma ilə verilməsə də, fars dilində olan şeirlərin böyük bir qismi sona yerləşdirilmişdir. Əsərdə türk dilində yazılmış bir qəzəldən sonra farsca yazılmış bir qəsidənin verilməsi tamamilə şairin öz təəssüratıdır.

Divanın başqa bir önəmi şairin, əslində, tədqiqatlarından hiss olunan, burada isə açıq-aydın görünən şiəliyə çox güclü bağlılığının müəyyən edilməsi üçün etibarlı mənbə olmasıdır. Şeirləri arasında on iki imamla bağlı qəsidələrin və bu mövzuya aid beytlərin çoxluğu, əsərdə şiə imamlarının, demək olar ki, hamısından bəhs olunması onun bu məzhəbə bağlılığı ilə əlaqədardır. Məlami, Bəktaşi, Mövləvi və şiə mədəniyyətini onun əsərlərində görmək mümkündür. O, maraq dairəsinə aid olan elmi və bədii əsərləri obyektiv təhlil etmək üçün onları orijinalından oxumaq məqsədilə ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Ona görə də bir çox türk tədqiqatçılarının yazdığı kimi, Quranı türk dilinə ən mükəmməl məzmunda tərcümə etmək ona nəsib olmuşdur. Fars dilini sonradan öyrənən bir insanın bu dili şeir yaza biləcək səviyyədə dərindən öyrənməsi, leksik, qrammatik və fonetik xüsusiyyətlərini əsaslı şəkildə mənimsəməsi onun elmə verdiyi qiymətin ifadəsidir.

## Nəticə / *Conclusion*

Bu tədqiqat işində Ə.Gölpınarlının divan ədəbiyyatı ilə bağlı yaradıcılığının özünəməxsus məziyyətləri nəzərə alınaraq, onun bu mövzuya müraciətinin səbəbləri araşdırılmış, tədqiqatlarının me-

yil və istiqamətləri müəyyənləşdirilmiş, elmi və bədii irsinin təkamülü tədqiq edilmişdir. Onu bu mövzuda elmi axtarışlara sövq edən səbəblər təhlil olunarkən, XV-XX əsrlər divan ədəbiyyatının görkəmli nümayəndələrinin poetik siqləti ilə seçilən əsərlərinin tədqiqatçının elmi yaradıcılığı üçün hazırlıq, mükəmməl baza olduğu təsdiqlənmiş, onun bir araşdırmaçı kimi potensialı ilə bağlı müəyyən qənaətlərə gəlinmişdir:

- Tədqiqatçı divan ədəbiyyatı ilə bağlı axtarışlarını davam etdirdikcə, daha da təkmilləşmiş, ədəbi hadisələrə baxış prizması dəyişmiş, istedad və qabiliyyətini yeni məzmunda ifadə etmişdir.
- Yaradıcılığının ilk dövrlərində “Divan ədəbiyyatı bəyanındadır” kitabını yazmaqla divan yaradıcılığını kəskin tənqid etsə də, sonra xəta etdiyini anlamış, əsərin ilk tənqidçilərindən biri müəllifin özü olmuşdur. “Füzuli Divanı”, “Yunus Əmrə divanı” və “Nədim Divanı”nı yazmaqla bu ədəbiyyatın, bir növ, haqqını özünə qaytarmış, özü də divan şairinə çevrilmişdir. Müəllifi olduğu divanda müxtəlif hadisələrlə əlaqədar yazdığı maddeyi-tarixlərdə bir çox tarixləri düzgün müəyyənləşdirmişdir.
- Lirik-fəlsəfi məzmunlu şeirlərin, eləcə də hürufizmin, sufizm təfəkkür tərzinin formalaşdığı bir vaxtda yazılan əsərləri daha obyektiv şəkildə təhlil etməyə çalışmış, onların bədii ifadə imkanları barədə qiymətli fikirlər söyləmiş, gerçəkliyin ədəbi-estetik dərki, ümumbəşəri problemlərin bədii inikasını təsvir etmək üçün elm sahəsindəki sələflərinin yaradıcılığından məharətlə yararlanmışdır.
- Araşdırdığı mənbələrdəki tarixi qaynaqlarla, qədim məxəzlərlə, ədəbi hadisələrlə bağlı məsələlərin hamısını eyni ciddiyyətlə təhlil etmişdir. Elmi idrakın mühüm formalarından biri olan problemin qoyulması və gerçəkliyin müəyyən sahəsinə aid olan hadisələri izah etməklə təzahür edən biliklər sistemini ifadə edən nəzəriyyənin praktik fəaliyyətdə tətbiqi Ə.Gölpınarlının yaradıcılığına xasdır.

## Ədəbiyyat / *References*


1. Okuyucu C. Divan edebiyatı estetiği. İstanbul: Kapı yayınları, 2013.
2. İbrahimov S. Divan ədəbiyyatının poetikası. Bakı: Bakı Universiteti nəşriyyatı, 2015.
3. Gölpınarlı A. Divan edebiyatı beyanındadır. İstanbul: Marmara kitabevi, 1945.
4. Səfərli Ə. Divan ədəbiyyatı sözlüyü. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2014.
5. Unat M. Abdülbaki Gölpınarlı. Hayatı, kişiliği ve eserleri. Diyarbakır: Dicle Üniversitesi, 2014.
6. Levent A.S. Divan edebiyatı. Kelimeler ve remizler, mazmunlar ve mafhumlar. İstanbul: Enderun, 1984.
7. Gölpınarlı A. Divan şiiri. 15-16. yüzyıllar. İstanbul: Varlıq yayınları, 1954.
8. Gölpınarlı A. Divan şiiri. 17. yüzyıl. İstanbul: Varlıq yayınları, 1955.
9. Gölpınarlı A. Divan şiiri. 18. yüzyıl. İstanbul: Varlıq yayınları, 1955.
10. Gölpınarlı A. Divan şiiri. 19. yüzyıl. İstanbul: Varlıq yayınları, 1955.
11. Gölpınarlı A. Divan şiiri. 20. yüzyıl. İstanbul: Varlıq yayınları, 1955.
12. Alparslan A. Abdülbaki Gölpınarlı. Ankara, Milli kütüphane basımevi, 1996.
13. Totan H. Abdülbaki Gölpınarlı Divanı. Konya: Selçuk Universitesi, 2013.
14. Kılavuz A.S. Ali er-Rza. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.2. Ankara: İSAM, 1989.
15. Uludağ S. İslam siyaset ilişkileri. İstanbul: Dergah yayınları, 1997.
16. Öngören R. Sühreverdi Ebün Necib. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.38. Ankara: İSAM, 2010.
17. Öz M. Cafer es-Sadık. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.7. Ankara: İSAM, 1993.
18. Kandemir M.Y. Cabir B.Abdullah hayatı və hadis rivayeti. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.6. Ankara: İSAM, 1992.
19. Ateş A. Cüneydi Bağdadi. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.8, Ankara: İSAM, 1993.
20. Kandemir M.Y. Ebü Turab. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi , c.10. Ankara: İSAM, 1994.
21. Azamat N. Divane Mehmed Çelebi. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.9. Ankara: İSAM, 1994.

22. Algar H. Hasan el-Askeri. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.16. - Ankara: İSAM, 1997.
23. Tülücü S. Hatim et-Tai. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.16. Ankara: İSAM, 1997.
24. Bahadıroğlu M. İbrahim Zahidi Geylani. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.21. Ankara: İSAM, 2000.
25. Öngören R. Marufi-Kerhi. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.28. Ankara: İSAM, 2003.
26. Öz M. Mehdi el-Muntazar. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.28. Ankara: İSAM, 2003.
27. Öz M. Muhammed el-Bakir. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.30. Ankara: İSAM, 2005.
28. Öz M. Muhammed bin Ali el-Taqi. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.30. Ankara: İSAM, 2005.
29. Öz M. Musa el-Kazım. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.7. Ankara: İSAM, 2006.
30. Yetik E. Dineveri Ebül-Abbas. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.9. Ankara: İSAM, 1994.
31. Kalkışım M.M. Şeyh Galib. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.9. Ankara: İSAM, 1994.
32. Özkan H. Zeyneb bint Ali. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.44. Ankara: İSAM, 2013.

## Проблемы диванной литературы в творчестве Абдулбаги Голпынарлы

**Насреддин Мусаев**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: musayev.nm@mail.ru

**Резюме.** В статье рассказывается об исследовательской деятельности уроженца Азербайджана Абдулбаги Голпынарлы, выдающегося историка литературы, автора оригинальных работ, связанной с диванной литературой. Особым этапом в его многогранной деятельности можно назвать многочисленные работы, написанные им о диванной литературе XV-XX веков и ее видных представителях. Пять книг, написанных ученым на эту тему в 1950-1955 годах, считаются положительным событием в литературоведении, так как он первый литературный критик в Турции, который провел обширное исследование, основанное на глубоком научном анализе диванной литературы. В статье рассматриваются наиболее примечательные стороны этих работ, которые оцениваются как характеристики настоящего исследователя, высказавшего оригинальное мнение по данной теме, разъяснившего истинную природу дивана и ведущего себя беспристрастно в начале 50-х гг. XX века.
Отмечается, что диванная литература в Турции была возрождена исследованиями А.Голпынарлы, а произведения диванных поэтов были представлены научному сообществу благодаря его серьезным исследованиям. Поскольку исследований о его научной деятельности в Азербайджане до сих пор не проводилось, то и не высказывалось отношение к его систематическим и многочисленным исследованиям диванной литературы. В этом смысле представленную статью можно считать актуальной с точки зрения изучения динамики развития диванной литературы, идейно-художественных особенностей произведений А.Голпынарлы о диванной литературе, а также научно-теоретических обобщений о его многогранном творчестве.
**Ключевые слова:** Абдулбаги Голпынарлы, диван, диванная литература, диванные поэты, поэтизм